# Festivalda Bakı Musiqi Akademiyasının müəllimləri konsert proqramı ilə çıxış ediblər

Uğurla davam edən XII Qəbələ Musiqi Festivalının üçüncü günündə - avqustun 2-də Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının müəllimlərinin iştirakı ilə geniş konsert proqramı təqdim olunub. Konsertdə festivalın təşkilatçı qurumlarının təmsilçiləri, yerli musiqisevərlər və şəhərin qonaqları iştirak ediblər.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, konsert Üzeyir bəy Hacıbəylinin "Cəngi" əsərinin ifası ilə başlayıb. Solist respublika və beynəlxalq müsabiqələr laureatı, pianoçu Fəqan Həsənlidir. Sonra tamaşaçılara Vətən müharibəsinin qazisi, respublika və beynəlxalq müsabiqələr laureatı, bəstəkar Vüqar Məmmədzadənin Nizami Gəncəvinin sözlərinə bəstələdiyi "Ayüzlü nigarım" mahnısı təqdim olunub. Solist Ataş Qarayevin ifa etdiyi mahnını Əməkdar artist İlham Nəcəfzadə (ney), respublika və beynəlxalq müsabiqələr laureatları Fəridə Ələkbərli (arfa), Əkbər Məmmədov (darbuka) və Orxan Hüseynov (violençel) müşayiət ediblər.

Konsertdə həmçinin M.Falyanın "İspan rəqsi", İ.Bramsın "Laylay", J.Ramonun "Quşların cəh-cəhi", Cövdət Hacıyevin "Ballada" və digər bəstəkarların əsərləri səsləndirilib. Bakı Musiqi Akademiyasının "Lumineux" vokal ansamblının təqdim etdiyi Azərbaycan xalq mahnısı "Güləbatın" və C.Blankonun "Lumen" əsəri tamaşaçıların ürəyincə olub. Konsertin proqramına həmçinin "Clarte" klarnet kvartetinin üzvləri Anar Məmmədov, Emil Bağırov, Məhəmmədəli Paşazadə və Məmməd Rəcəblinin ifasında Tofiq Quliyevin "Sən mənimsən, mən sənin", Vaqif Mustafazadənin "Yollar" və İ.Volantenin "Amerikan felinq" əsərləri də daxil edilib.

Azərbaycan.- 2021.-3 avqust.- S.8.